**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XALQ RƏSSAMI KAZIM KAZIMZADƏ QRAFİKASININ BƏDİİ XÜSUSİYYƏTLƏRİ

İxtisas: 6215.01 – Təsviri sənət

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Flora Abdulxalıq qızı İsgəndərli**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Sevil Yusif qızı Sadıxova**

Rəsmi opponentlər: Xalq rəssamı, professor
**Arif Şahbaz oğlu Hüseynov**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Ceyhun Yaşar oğlu Səmədov**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Ramil Afiq oğlu Quliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurası

Dissertasiya şurasının sədri:
Xalq rəssamı, professor
**Fuad Məmməd-Emin oğlu Salayev**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Xanım Zəlimxan qızı Əsgərova**

Elmi seminarın sədri:
Xalq rəssamı, professor
**Natiq Kamal oğlu Əliyev**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Xalq rəssamı Kazım Kazımzadənin geniş diapazona malik yaradıcılığı milli qrafika sənətində özünəməxsus yer tutur. XX əsrin birinci yarısında uğurlu fəaliyyətə başlayan rəssam yarım əsrdən çox Azərbaycan rəssamlığına poetik ruhlu əsərləri ilə böyük töhfələr vermişdir.

K.Kazımzadənin Azərbaycan incəsənətinin, daha geniş desək, çoxəsrlik mədəniyyətinin əsas sütunları sayılan miniatür, xalça, eləcə də folklordan güc alan yaradıcılığı özündə milli və bəşəri dəyərləri əks etdirir.

İxtisas təhsilini əvvəlcə Azərbaycan Rəssamlıq texnikumunda, 1960-cı ildə isə İ.Y.Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda almış rəssam ömrünün böyük bir qismini Azərbaycan Milli İncəsənət muzeyinə rəhbərlik edərək keçirmişdir. Muzeydə göstərdiyi fəaliyyət onun ömrünün sonuna qədər davam etmişdir. Bununla yanaşı Beynəlxalq Muzeylər Şurası Sovet komitəsinin əsas üzvü kimi də fəaliyyət göstərmiş görkəmli rəssam Bakı şəhərində Səməd Vurğun və Üzeyir Hacıbəyovun ev-muzeylərinin, Qazaxda Səməd Vurğun poeziya evinin, Lənkəran tarix-diyarşünaslıq muzeyinin ilk bədii tərtibatını vermişdir.

K.Kazımzadə ömrünün uzun ilini Azərbaycan təsviri sənətinin inkişafına və təbliğinə həsr etmiş, müxtəlif janrlarda mövzu baxımından çoxsaylı maraqlı əsərlər yaratmışdır. Onun kitab qrafikası sahəsində xidmətləri xüsusilə əlamətdar olmuşdur. Azərbaycan və dünya ədəbiyyatı klassiklərinin əsərlərinə çəkdiyi illüstrasiyalar ölkəmizdə kitab mədəniyyətinin təşəkkül tapmasına öz təsirini göstərmişdir.

K.Kazımzadənin yaradıcılığının aktuallığı işlənmə səviyyəsi ilə müəyyən olunur. Beləliklə, tədqiqatın aktuallığı rəssamın yaradıcılığının Azərbaycan milli incəsənətinin inkişafına təsirinin və XX əsr Azərbaycan təsviri sənətindəki mövqeyinin müəyyən olunması probleminin qoyuluşundan irəli gəlir.

Xalq rəssamı K.Kazımzadənin yaradıcılığı mütəxəssislərin diqqətini daima özünə cəlb etmişdir. Rəssamın yaradıcılığına sənətşünaslıq münasibəti 1993-cü ildə sənətşünas, Əməkdar incəsənət

xadimi Ziyadxan Əliyevin yazdığı "Sənətkar ömrü" adlı kitabında[1] öz əksini tapmışdır. Həmçinin, sənətşünas Sevil Kərimovanın yazdığı monoqrafiyada[2] da Xalq rəssamının yaradıcılığı tədqiq olunmuşdur.

Xalq rəssamı K.Kazımzadənin yaradıcılığı haqqında müxtəlif illərdə dövrü mətbuatda – qəzet və jurnal səhifələrində çoxsaylı məqalələr dərc olunmuşdur. Rəssamın müxtəlif miqyaslı sərgilərdə nümayiş olunan əsərləri sənətsevərlərin, jurnalistlərin diqqətini cəlb etmiş, eyni zamanda onlarla yanaşı görkəmli sənətkarın özü və yaradıcılığı haqqında sənət dostlarının, yazıçı, şair, tədqiqatçıların yazıları da dərc olunmuşdur. Bu mənada M.Abdullayevin "Ağır itki..."[3], A.Bayramovun "Unudulmaz Kazım müəllim"[4], S.Fərəcovun "Muzey işi onun həyatı idi"[5], T.Mehdixanlının "Vətənə xidmət etməkdən fəxr duyardı"[6] , Z.Əliyevin "Cizgilərdə yaşayan ömür"[7], E.Qasımovanın "Ömür bir yoldur..."[8], M.Tərlanovun "Cəbhə rəsmləri"[9] məqalələrini və s. qeyd etmək olar.

1966-cı ildə N.Həbibovun müəllifliyi ilə Bakıda çap olunmuş "Azərbaycan sovet rəssamlığı"[10] kitabında yenə də rəssamın qrafik illüstrasiyaları haqqında məlumat verilmişdir.

1970-ci ildə Moskvada çap olunmuş əhatəli «Искусство Советского Азербайджана: живопись, графика, скульптура» kitabında[11] K.Kazımzadənin yaradıcılığı əvvəlki nəşrlərə nisbətən

---

[1] Əliyev, Z. Sənətkar ömrü / Z. Əliyev.– Bakı:- 1993.- 32 s.

[2] Kərimova, S. Kazım Kazımzadə: monoqrafiya. / S.Kərimova. - Bakı: Time print, - 2014. - 304 s.

[3] Abdullayev, M. Ağır itki ... // İncəsənət. - 1992. 17 oktyabr. - s.7.

[4] Bayramov, A. Unudulmaz Kazım müəllim // Mədəniyyət – 2010, 25 avqust. - s. 12.

[5] Fərəcov, S. Muzey işi onun həyatı idi // Mədəniyyət -2017, 8 dekabr. - s.10.

[6] Mehdixanlı, T. Vətənə xidmət etməkdən fəxr duyardı // Azərbaycan – 2005, 9 avqust. - s. 8.

[7] Əliyev, Z. Cizgilərdə yaşayan ömür // Respublika – 2013, 7 avqust. - s. 7.

[8] Qasımova, E. Ömür bir yoldur... // -Bakı: Qobustan, -1990, №1. - s. 45-49.

[9] Tərlanov, M. Sovet Azərbaycanının təsviri incəsənəti / M.Tərlanov, R.Əfəndiyev. – Bakı: – 1958. – 52 s.

[10] Həbibov, N. Azərbaycan sovet rəssamlığı. / N.Həbibov – Bakı, – 1966.- 186 s.

[11] Искусство Советского Азербайджана. живопись, графика, скульптура. / Под общ. ред. Н.А. Езерской, К.Дж. Керимова, М.Н. Наджафова. – Москва: Советский художник. -1970. - 206 с.

daha geniş işıqlandırılmışdır.

R.Hacıyevin 1962-cı ildə nəşr etdiyi «Азербайджанская советская графика» monoqrafiyasında[12], B.Hacızadənin "Azərbaycanın karikaturaçı rəssamları" (2005)[13], "100 illik karikatura tariximiz" (2006)[14], "Azərbaycan karikaturası dünən və bu gün" (2007)[15], "Karikatura sənətinin formalaşma tarixi" (2011)[16], "Azərbaycanda karikaturanın inkişafı" (2008)[17] monoqrafiyalarında və üç cildli "Kirpi"nin rəssamları"[18] adlı tədris vəsaitində K.Kazımzadə yaradıcılığı haqqında məlumat verilmişdir.

Azərbaycan dəzgah qrafikasının inkişafına retrosrektiv baxış kimi Rəşad Mehdiyevin "Azərbaycanda dəzgah qrafikasının yaranması və onun inkişaf yolları" (Bakı, 2008)[19] adlı sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyasını göstərmək olar. Dissertasiyada bilavasitə yuxarıda sadalanan monoqrafiyalardan, Azərbaycan tədqiqatçılarının, sənətşünaslarının müxtəlif elmi məqalələrindən istifadə edilmiş, şəxsi müşahidələrdən, sərgilərdən, K.Kazımzadənin yaradıcılığına həsr olunmuş kataloqlardan, tamaşa və kinofilmlərə çəkdiyi eskizlərdən bəhrələnmiş və rəssamın adı gedən sahələr üzrə yaradıcılığındakı bədii-plastik xüsusiyyətlərinin müəyyən edilməsi məsələlərini əhatə etməyə, müqayisəli təhlilini verməyə çalışılmışdır.

---

[12] Гаджиев, П. Азербайджанская советская графика. / П.Гаджиев. – Баку: изд-во АН Азербайджанской ССР, - 1962. - 139 с., -36 л. ил.

[13] Hacızadə, B. Azərbaycanın karikaturaçı rəssamları. / B. Hacızadə. - Bakı: Çaşıoğlu. -2005.- 120 s.

[14] Hacızadə, B. 100-illik karikatura tariximiz. / B.Hacızadə. – Bakı: Səda. - 2006. - 128 s.

[15] Hacızadə, B. Azərbaycan karikaturası dünən və bu gün. / B.Hacızadə. - Bakı. 2007. - 64 s.

[16] Hacızadə, B. Karikatura sənətinin formalaşma tarixi. / B.Hacızadə.– Bakı: Azəri-dizayn. 2011, 216 s.

[17] Hacızadə, B. Azərbaycanda karikaturanın inkişafı. / B.Hacızadə. -Bakı: Səda. – 2008. - 231 s.

[18] Hacızadə, B. "Kirpi"-nin rəssamları 1952-1969. / B.Hacızadə.– Bakı: Bestpack.- 2017; Hacızadə B. "Kirpi"-nin rəssamları 1970-1979. – Bakı: Bestpack. 2017; Hacızadə B. "Kirpi"-nin rəssamları 1980-1991. – Bakı: Bestpack. 2017

[19] Mehdiyev, R. Azərbaycanda dəzgah qrafikasının yaranması və onun inkişaf yolları:/ sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2008. - 140 s.

Yuxarıda qeyd olunan nəşrlər XX əsr Azərbaycan qrafikasında özünəməxsus dəst-xətti olan K.Kazımzadənin yaradıcılıq axtarışlarını tam əhatə etməməsi, onun yarım əsri əhatə edən səmərəli fəaliyyətinin tədqiqinin zəruriliyini şərtləndirmişdir. Bu tədqiqatın Azərbaycan qrafikasının ənənələrinin inkişafı kontekstində aparılması da rəssamın bu prosesə verdiyi töhfələrin bədii xüsusiyyətini üzə çıxarmaq istəyindən irəli gəlmişdir.

Bu baxımdan belə tədqiqatın Xalq rəssamı K.Kazımzadənin qrafik yaradıcılığı üzərində aparılmasının zəruriliyi danılmazdır.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin tədqiqat obyektini K.Kazımzadənin əsasən klassik ədəbiyyatımıza, eləcə də müasir dövr ədəbiyyatına etdiyi illüstrasiyalar, müxtəlif qrafik əsərlər, bəzi tamaşalar və filmlər üçün etdiyi geyim eskizləri təşkil edir.

Rəssamın dövrü mətbuatda nəşr olunmuş əsərləri ilə bərabər şəxsi kolleksiyalarda, ailə arxivində saxlanılan əsərləri tədqiqat obyekti bazasını xeyli genişləndirmişdir.

Tədqiqatın predmetini Azərbaycanın Xalq rəssamı K.Kazımzadənin yaratdığı qrafik əsərlərin bədii xüsusiyyətlərini üzə çıxarmaq, rəssamın bu sahədə olan yaradıcılığının özünəməxsusluğunu aşkarlamaq təşkil edir.

Rəssamın yaradıcılığındakı təmayülləri araşdırıb, konkret nəzəri müddəalarla təsbit edilərək onun yaradıcılığının yeni və orijinal ifadə vasitələrini müəyyən etmək tədqiqatın predmetinin əsasında durur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycan Xalq rəssamı K.Kazımzadənin yaradıcılığını sistemli təhlil edərək rəssamın yaradıcı şəxs kimi özünəməxsusluğunu, dəst-xəttini, yaradıcılıq metodunu və səciyyəvi xarakterik xüsusiyyətlərini, sənət üçün əhəmiyyətini müəyyən etməkdir. Rəssamın yaradıcılıq xüsusiyyətlərini həmdövr Azərbaycan incəsənəti kontekstində təhlil etmək tədqiqatın məqsəd və vəzifələri kimi çıxış edir.

Tədqiqatın məqsədi kimi həm də rəssamın yaradıcılığının milli məzmunlu əsərləri sırasında klassik ədəbiyyatımıza, eyni zamanda XX əsr ədəbiyyatına edilən müraciət, Təbriz miniatür üslubunun təsirləri əsasında yaradılmış illüstrativ materialları, eləcə də realistik üslubun ifadəli formalarında uğurlu istifadənin nəticəsi olan əsərləri

təhlil etmək K.Kazımzadə yaradıcılığına müasir dövrün prizmasından yanaşmaqdır.

K.Kazımzadənin yaradıcılıq prinsiplərinin öyrənilməsi aşağıdakı vəzifələrin həllini nəzərdə tutur:

- K.Kazımzadə yaradıcılığına aid əsərləri toplayıb sistemləşdirmək;
- rəssamın qrafik əsərlərini əhatəli şəkildə təhlil etmək;
- K.Kazımzadənin yaradıcılığında emosional gücün ifadə vasitələrini müəyyənləşdirmək;
- Xalq rəssamı K.Kazımzadənin yaradıcılığında kitab tərtibatının üslub xüsusiyyətlərini araşdırmaq;
- K.Kazımzadənin yaradıcılığında Böyük Vətən Müharibəsi mövzusu üzrə əsərləri təhlil edərək müasir dövrün prizmasından yanaşmaq;
- rəssamın əsərlərində obrazlılıq prinsipini müəyyənləşdirmək;
- K.Kazımzadənin əsərlərində məkan tərənnümünün bədii ifadə xüsusiyyətlərini müəyyən etmək;
- K.Kazımzadə yaradıcılığının müasir Azərbaycan rəssamlığının inkişafında rolunu və yerini araşdırmaq.

**Tədqiqat metodları.** Metodoloji əsaslar kimi tarixi-bədii və milli-tarixi yanaşma üsullarına üstünlük verilib. Rəssamın qrafik əsərlərinin xronoloji ardıcıllığına riayət olunmaqla tarixi-müqayisəli təhlil metoduna əsaslanaraq tədqiq edilmişdir. Bu metoda müraciət bədii-stilistik sənətşünaslıq təhlili çərçivəsində Azərbaycanın görkəmli rəssamı K.Kazımzadənin tədqiqata cəlb edilən əsərlərinin obrazlı və stilistik həllinin səviyyəsini üzə çıxarmağa imkan verir.

Həmçinin, dövri mətbuatda zaman-zaman nəşr edilən və rəssamın yaradıcılığını müxtəlif yönlərdən işıqlandıran məqalələr, kataloqlara yazılan mətnlər və bədii irsinin tədqiq olunduğu kitablar da nəzəri material kimi əsas götürülür.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- K.Kazımzadə karandaşla çəkmə texnikasında yerinə yetirilən illüstrasiyalarda dəqiq modelləşdirməyə və həcmə üstünlük verirdi;

- rəssam realistik üslubda yaratdığı mənzərə və interyerləri şərti-səthi manerada icra edirdi;

- rəssamın illüstrasiyalarında Şərq miniatür məktəbinin təsirləri izlənilirdi;

- rəssam Nizami Gəncəvi irsinə müraciət etməklə klassik Azərbaycan təsviri sənət ikonoqrafiyasını canlandırırdı;

- rəssam ədəbi əsərlərin həllində Təbriz miniatür üslubunun kompozisiya quruluşuna müraciət edir, Şərq təsvir plastikasına üstünlük verirdi;

- klassik Şərq ədəbiyyatının illüstrasiyası üzərində işləyən rəssam neoklassik meyllərə can atırdı;

- rəssam xarici ölkələr mövzusuna aid silsilə əsərlərini ənənəvi janr çərçivəsində icra etməyə meylli idi;

- geyim tarixinə bələd olan rəssam kino və teatr tamaşaları üçün yaratdığı geyim eskizlərində personajın tarixiliyini və sosial statusunu əsas tutur, paltarın gözəgəlimli və cəlbedici olmasına çalışırdı.

**Tədqiqatın elmi yeniliyi** ilk növbədə ondan ibarətdir ki, elmi araşdırmalar zamanı K.Kazımzadənin bu günə qədər tədqiq olunmamış qrafik əsərləri, geyim eskizləri təsvir və təhlil olunmuşlar.

Tədqiqat işinin elmi yeniliyi məhz problemin qoyuluşu ilə müəyyən olunmuş və aşağıdakı müddəalarda öz əksini tapmışdır:

- tədqiqatda Xalq rəssamı K.Kazımzadənin həyat və yaradıcılığına həsr olunmuş ümumiləşdirici, hərtərəfli elmi-nəzəri əsərin yaradılmasına cəhd edilmişdir;

- rəssamın həyat və yaradıcılığı ilk dəfə olaraq dolğun və bütöv bir şəkildə Azərbaycan sənətşünaslığında monoqrafik tədqiqat obyekti kimi çıxış edir;

- K.Kazımzadənin yaradıcılığı ardıcıl tədqiq olunaraq sistemləşdirilmiş, yaradıcılığının mərhələləri müəyyən olunmuş, ümumiləşdirilmiş nəticələr çıxarılmışdır;

- rəssamın Azərbaycan qrafika sənətində yeri və rolu müəyyənləşdirilmişdir;

- onun əsərlərinin üslub, janr və icra texnikasına görə təsnifatı aparılmışdır;

- K.Kazımzadənin kitab qrafikası, konkret bölgülər əsasında tədqiq olunmuşdur;

- rəssamın yaratdığı əsərlərin əsasən tarixi və bir qədər də texnikaları ilə bağlı mövcud boşluq aradan götürülmüşdür;

- ilk dəfə olaraq rəssamın XX əsr Azərbaycan incəsənətində rolu, yeri və töhfəsi müəyyən olunmuşdur ki, bu da həm rəssamın özünün yaradıcılığını, həm də respublikanın yaradıcı həyatında baş verən bəzi prosesləri yenidən dəyərləndirməyə imkan vermişdir.

Rəssamın uzun illik yaradıcılığı bədii ifadə axtarışları və yaradıcılıq xüsusiyətlərindəki fərdi çalarlar üzrə ayrılaraq onların inkişaf istiqamətləri və yaradıcı nailiyyətləri müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Təqdim olunmuş dissertasiya Azərbaycan incəsənəti tarixini genişləndirərək, onun ümumi inkişafında Azərbaycan Xalq rəssamı K.Kazımzadə yaradıcılığının rolunu, yerini və yaradıcılıq metodunu müəyyən edir.

Tədqiqat rəssamlıq təhsili alan ali və orta ixtisas müəssisələrində rəssamlıq və sənətşünaslıq ixtisaslarında təhsil alan tələbələrə "Azərbaycan təsviri sənəti tarixi" və "Kitab tərtibatının bədii xüsusiyyətləri" mövzularında xüsusi kurslarda tədris oluna bilər. Rəssamın yaradıcılıq təcrübəsinə aid xüsusiyyətlər gənc rəssamlar üçün əməli tövsiyələr rolunu oynaya bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas məzmunu, müddəa və nəticələri 9 elmi məqalədə öz əksini tapmışdır. Mövzu ilə bağlı məruzələr müxtəlif səpkili yerli və xarici elmi konfranslarda dinlənilmişdir. Dissertasiya işi sənətşünaslıq ixtisasına yiyələnən və təsviri sənət üzrə təhsil alan tələbələrin tədrisi prosesində, elmi-tədqiqat işlərinin aparılması zamanı tətbiq oluna bilinər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, iki fəsil, altı paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. O cümlədən: Giriş – 11.180, 1.1. – 40.397, 1.2. – 40.038, 1.3. – 37.050, 2.1 – 28.959, 2.2. – 23.010, 2.3. – 28.257, Nəticə – 8.492 işarə olmaqla dissertasiyanın ümumi həcmi

218.970 işarədən ibarətdir. Tədqiqatın məzmununu əks etdirən illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## İŞİN ÜMUMİ MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

**Girişdə** mövzunun aktuallığı və işlənmə səviyyəsi, məqsəd və vəzifələri, obyekti və predmeti, müdafiəyə çıxarılan əsas müddəalar, eləcə də işin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqqında məlumat verilir.

Dissertasiyanın "**Xalq rəssamı Kazım Kazımzadənin yaradıcılığında bədii ifadə axtarışları"** adlı I fəslin **"Kazım Kazımzadənin yaradıcılığında bədii ifadənin emosional gücü"** adlı birinci paraqrafında rəssamın əsərlərindəki emosional güc, dinamizmin seçdiyi səhnənin həyəcan doğuran formalarıyla bədii vəhdətdə verilməsindən bəhs edilir. Əsasən hər hansı bir bədii əsər üzərində çalışarkən rəssam kitab üçün onun elə səhnələrini seçib əks etməyə çalışırdı ki, bu səhnələr tamaşaçısını oxucusu qədər bütün inkişaf xətti boyu düşüncəsini zəbt etsin və onda əsər, personajlar, hadisələr haqqında daha dərin təəssürat yaratsın. O, "Leyli və Məcnun" poemasına çəkdiyi illüstrasiyalarda əsərin kulminasiya nöqtəsini açan və yaxud obrazın hiss, emosiyalarını təqdim edən səhnələrdə daxili və xarici dinamizmi birləşdirərək həyəcan doğuran dərin ekspressiyanı  təsvir etməyə nail olmuşdur.

K.Kazımzadənin kağız üzərində karandaşla yaratdığı əsərlərində rəng oyunlarının gərgin münasibətlərinin olmaması onun bu əsərlərdə dərin emosionallığı hiss etdirməsinə mane olmur. Rəssam buna əsasən işıq-kölgə münasibətlərinin uğurlu əlaqələndirilməsi, məsafə anlayışının məqsədli yerinə yetirilməsi, məkan və obraz əlaqəsinin harmonik ifadəsi ilə nail olmağı bacarmışdır. Özünün dərin dinamizmi, hərəkətlərin ekspressiyası, emosional təsiri ilə diqqət çəkən əsərlərdən 1942-ci ilə aid Nizami Gəncəvinin məşhur "İsgəndərnamə" poemasına çəkdiyi illüstrasiyaları qeyd etmək olar (məs., "Bəhram Gur və Fitnənin ov səhnəsi"). K.Kazımzadənin "Slavyan gözəlinin nağılı"na həsr edilmiş qrafik həlli illüstrasiyada da

daxili və xarici emosiyaların bədii əlaqələndirilməsi nəticəsində yaranmış ekspressiya tamaşaçı diqqətini cəlb etdirən əsas amildir. Kağız üzərində sulu boya ilə çəkilmiş "Fərhadın qayanı çapması" səhnəsinə həsr edilmiş illüstrasiyada isə böyük bir gücün, qüvvətin hünərini rəssam zərbədən od püskürən sıldırım qayaların böyüklüyü, möhtəşəmliyi ilə və onun qarşısında ram olmayan Fərhadın güclü bədən əzələləri ilə olduqca dinamik şəkildə canlandırmışdır.

Nizami Gəncəvinin "Xəmsə"sindən "Yeddi gözəl" poemasına çəkilmiş 1979-cu ilə aid edilən Bəhramın iki şir arasındakı mübarizəsini əks etdirən eyni səhnəyə həsr edilmiş miniatür Behzad məktəbinin ən dəyərli nümunəsi kimi dəyərləndirilir. Bu qrafik əsərdə dinamizm özünün bədii həllini hadisəni tamaşaçısına nəql edəcək aydın kompozisiya quruluşunda təqdim etmişdir. Rəssam burada daxili və fiziki gücün birləşdiyi andan doğan mübarizənin tərənnümünü parlaq isti tonların ifadəsində həll etmişdir ki, bu da dərin emosional təsirin yaranmasına səbəb olmuşdur.

"Kitabi-Dədə Qorqud"un "Basatın Təpəgözü öldürməsi" boyu əsrlərdən gələn folklorun insanların şüurunda yaratdığı təəssüratın fərqli və ya təəccüb doğurucu təsviri ilə rastlaşmaları böyük bədii yanlışlıq ola bilərdi. Rəssam hər şeydən öncə türk dünyasının ortaq folklorunun xarakterik səciyyəsini əsas tutmağı bacarmış, topladığı geniş informasiyadan sonra əsas səhnənin bədii təqdimatını vermişdir.

Dinamik ekspressiya, hərəkət və hadisələrə həssas baxışın səciyyələndirdiyi bu tipli əsərlərin bizə diktə etmək istədiyi hadisəni tərənnüm etmək üçün rəssam elə bir kompozisiya forması yaratmışdır ki, həmin səhnənin əsasında duran hadisə haqqında dolğun təəssürat yaranır. Bu mənada "Azərbaycan nağılları" kitabı üçün edilmiş illüstrasiyalarda yüksək həssaslıqla verilmiş işıq-kölgə oyunlarına, elementlərin sıx və yaxud geniş bir məkanda tək təsvirinə baxmayaraq, hər zaman hadisənin əsasında dayanan əsas elementlərin vurğulanaraq verilməsi məzmun açılışına xidmət etmişdir.

Fəslin **"Kazım Kazımzadənin yaradıcılığında kitab tərtibatının üslub xüsusiyyətləri"** adlı ikinci paraqrafı göstərilir ki, Azərbaycan kitab qrafikasının 1930-40-cı illərdə özünəməxsus bədii ifadə nümunələrini sərgiləyən rəssamlardan biri də K.Kazımzadə olmuşdur. Şərq və Azərbaycan tarixinə dərindən bələd olan rəssam bu

biliklərini müxtəlif yazıçı və şairlərin əsərlərinə çəkdiyi illüstrasiyalarda ifadə etmişdir. Bunu onun M.F.Axundzadə və N.Gəncəvi ünvanlı kitab tərtibatları da təsdiqləyir.

K.Kazımzadənin "İsgəndərnamə"nin birinci kitabına (1941), "Sirlər xəzinəsi" (1947) poemasına, eləcə də "Fitnə", "Sehirli üzük" və "İsgəndər və çoban" (1941) hekayələrinə çəkdiyi illüstrasiyalarda Nizami irsinə bələdçiliyi və bunun mətnlə səsləşən bədii şərhinin mövcudluğu aydın görünür.

Əməkdar incəsənət xadimi Z.Əliyev qeyd edir ki, "*Azərbaycan təsviri sənətinin XX əsr mənzərəsinin yaranmasında səmərəli fəaliyyət göstərən rəssam kitab və dəzgah qrafikası sahəsində yaddaqalan əsərlər yaratmışdır. Onun neçə-neçə klassik ədəbiyyat nümunəsinə verdiyi tərtibat, çəkdiyi illüstrasiyalar kitab qrafika sənətimizi zənginləşdirən layiqli sənət nümunələridir*"[20].

Rəssamın Nizami "Xəmsə"sinə çəkdiyi illüstrasiyalarda da poemanın süjet xətti ilə səsləşən bədii şərhini görmək mümkündür. Bu bədii şərhlərdə müəllifin ənənə ilə müasirliyin vəhdətinə nail olması "Leyli və Məcnun"da bir-birini əvəzləyən hadisələrin daşıyıcıları olan obrazların hiss-duyğularını inandırıcı bir tutumda ifadə etməyə imkan vermişdir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru S.Kərimova qeyd edir ki, "*Kazımzadə klassik ciddiliyi və təmkinliyi çərçivəsində gəncin incə və zərif lirik obrazını yaradır və bu sahədə o, digər sənətkarlara nisbətən Nizami fikrinə daha artıq yaxınlaşır*"[21].

K.Kazımzadə "Kitabi-Dədə Qorqud" dastanına, Xətainin, Şirazinin poemalarına, A.Bakıxanovun, Ə.Haqverdiyevin, M.S.Ordubadinin, M.Cəlalın, M.Seyidzadənin əsərlərinə müxtəlif illərdə illüstrasiyalar çəkmişdir. Dəyər meyarına görə fərqli axtarışlarla dolu olan əsərlərindən biri rəssamın "Kitabi-Dədə Qorqud" eposuna çəkdiyi illüstrasiyalardır. Müxtəlif çeşidli hadisələri, tarixi epizodları olan bu eposdan ilhamlanaraq çoxsaylı maraqlı süjetlərdən ibarət kompozisiyalar yerinə yetirilmişdir. Rəssamın qarşısına qoyduğu məqsəd xalqın tarixi, onun mənşəyi,

---

[20] Əliyev, Z. Sənətkar ömrü / Z. Əliyev.– Bakı:- 1993.- s.7

[21] Kərimova, S. Kazım Kazımzadə: monoqrafiya. / S.Kərimova. - Bakı: Time print, - 2014. – s.23.

parlaq keçmişidir. Bütün mövzular həmişə şən, yaradıcı, gerçəkliyə doğru əxlaqi dəyərləri təbliğ edəcək münasibəti təsdiqləyir. Qazan xan buğa ilə döyüşdə həddən artıq incə və emosional baxımdan nisbətən passiv formada təsvir edilmişdir.

Nizami Gəncəvi dünyasına, onun əvəzsiz ədəbi irsinə dəfələrlə müraciət etmiş rəssamın növbəti illüstrasiyalarından biri də "İsgəndərnamə" poemasına edilmiş nümunədir. Kitabın nəfis tərtibatında özünün böyük rolunu təsdiqləyən illüstrasiyada Şərq miniatür məktəbinin təsirləri özünü aydın göstərməkdədir. Bütün poemanın səhnə görüntülərini, baş verən hadisələrin təəssüratını ümumiyə tabe edərək dəyərləndirməyi bacaran rəssam sarı rəngli çalar üzərində qara xətti ştrixlərlə əsərin məzmununu əhatə edən müxtəlif səhnə təsvirlərini əsas ön təsvirin sanki fonu kimi canlandırır. Sənətkar burada ilanın qıvrılaraq keçməsini, dərvişin əlində çomağı ilə nəzərlərini uzaqlara dikməsini, Azərbaycanın qədim yaşayış yerlərinə xarakterik memarlıq-məkan mühitini elə şəkildə vermişdir ki, onlar həm real təsvir gücünü təqdim edir, eyni zamanda da əsas səhnənin rəngarəng çalarları arasında onun daha qabarıq önə çıxmasına imkan yaratmışdır.

Məhsəti Gəncəvinin "Rübailər" kitabına edilmiş illüstrasiyada K.Kazımzadənin lirik hisslərlə verilmiş iki aşiq obrazının həssas tərənnümündə özünü təsirli formalarla aşkara çıxarır. O, bu lirizmi canlandırmaq üçün dağların, dərələrin, təbiətin saf görünüşünü mavi çalarlarda fon kimi istifadə etmişdir. Əsərdə insan və təbiət əlaqələndirməsini uğurla yaradan rəssam mühitin də insan ruhuna uyğunlaşdırılmış xoş aurasını daxili hissələrin lirikasına uyğun həll etməyi bacarmışdır. Ağ və mavinin çalarlarıyla həll edilmiş fon soyuq rəngin incə keçidlərini özündə əks etdirir. Ön səhnədə gözəlliyin tərənnümü və bu gözəlliyə aşiq insan qəlbinin incə hissləri nəzəri cəlb edir.

Ümumiyyətlə, K.Kazımzadənin kitab tərtibatı sahəsindəki fəaliyyətində onun əsas klassik irsə müraciət etdiyini, realistik təsvirlərlə yanaşı, əsasən Təbriz miniatür məktəbinin əsaslarından təsirləndiyi maraq doğurur. Belə nəticəyə gəlmək olar ki, rəssam klassik irsin dərinliklərinə bələd olaraq, əsərlərin ümumi ruhunu tutmağı məharətlə bacarmışdır. O, burada lirik-romantik duyğuların

önə çəkilməsində təbiət və insan ruhunun ümumi ab-havasının əlaqələndirilməsi prinsipini hər zaman əsas tutmuşdur. Məsələn, "Qəzəllər" kitabına edilmiş illüstrasiyada üç rəngin – ağ, boz və qara çalarların istifadəsi uğurlu kompozisiya quruluşunun mükəmməl ifadəsi üçün yetərli hesab edilə bilər. Burada demək ki, əsas olan formaların, cizgilərin düzgün əks olunmasıdır.

K.Kazımzadə dövri mətbuatda da özünün maraqlı illüstrasiyaları ilə daim çıxış etmişdir. Onun "Kirpi" jurnalında çap edilmiş təsvirlərində rəssamın incə yumoru, bəzən isə ciddi tərbiyəvi əhəmiyyət kəsb edən illüstrasiyaları günümüzdə belə öz aktuallığını itirməməkdədir. Məsələn, dahi Nizami obrazının nəsihət verirmiş kimi oxucusuna və tamaşaçısına baxan müdrik simasında gələcəyin təməli olan uşaqların kitab oxumağa olan həvəslərinin bütün cəmiyyət üçün vacib məsələ olduğunu izah edən nümunə diqqəti özünə cəlb edir. Bir kənarda qalaqlanmış rəngarəng, fərqli tərtibata malik təəssüratı ifadə edən kitablara işarə edən dahi filosof şairin müdrik baxışları olduqca təsirli formalarla canlandırılmışdır.

Fəslin **"Kazım Kazımzadənin yaradıcılığında Böyük Vətən Müharibəsi mövzusu"** adlı üçüncü paraqrafında İkinci Dünya Müharibəsinin iştirakçısı olan rəssamın müharibənin böyük sınaqlardan keçmiş ağır, fəlakət dolu illərinin canlı şahidi olması onun bu istiqamətdə yaradıcılığının yeni bir qolunu təşkil edən əsərlərin bədii təhlili verilmişdir. İki dövrü əhatə edən bu mövzudakı yaradıcılığı müharibənin birinci dövrünün ən ağır illəri olan 1943-cü ildə yaratdığı əsərləridir. İkinci dövrü isə qələbədən 34 il sonra - 1979-cu ildə üzərində çalışdığı, artıq yaddaşlarda qalan unudulmaz xatirələrin tərənnümünə həsr edilmiş əsərləri təşkil edir.

1972-ci ildə yaradılan belə nümunələrdən birində ağır, soyuq qış günlərində gedən mübarizənin içərisində başında dəmir dəbilqə, əlində silahı olan iki hərbiçinin böyük təəssüf və ürək yanğısı ilə həlak olmuş insanların yerə sərilmiş cənazələrini izləmə səhnəsi verilmişdir. Əsərin ruhunda böyük ürək yanğısı, məyusluq hökm sürməkdədir. Ağ fon üzərində qara ləkələrlə edilmiş hava mühitinin soyuqdan bozaran çalarları bu hisslərin daha dərin yaşantılarını təqdim edir. Qara tuşun tətbiqilə verilmiş məharətli bədii effektlər təsvir edilmiş obyekt və elementlərin emosional təsir gücünə öz töhvəsini göstərməkdədir.

Ukraynanın Böyük Belozerko vilayətinin müharibə dövrünə həsr edilmiş əsərində də savaşın kəskin səhnə tərənnümü ilə bağlı kədərli bir mənzərəsini əks etdirir. Rəssam bu faciəni dağınıqlıq, xaos təşkil edən bir mühitlə deyil, boş qalmış dərin bir kədərlə tərənnüm edərək hisslərin bütün ağırlıqlarını kağız üzərinə köçürməyi bacarmışdır.

K.Kazımzadənin İkinci Dünya müharibəsi mövzusuna həsr etdiyi əsərlərində onun hər hansı bir şəhərin və yaxud kəndin təsvirinə bir neçə dəfə fərqli formalarla müraciət etdiyinin şahidi oluruq. Belə əsərlərindən Rusiyanın Rostov vilayətində yerləşən Bataysk bölgəsinə həsr edilmiş iki eyni adlı əsər öz məzmunları ilə bir-birilərindən fərqlənir.

K.Kazımzadənin 1943-cü ilə aid müharibə mövzusunda yaratdığı əsərləri arasında "Proxladnıy. Vağzal." adlı əsərin təqdim etdiyi emosional təsirli ifadələr də olduqca böyük maraq doğurur. Qrafik əsərdə dəmiryol vağzalının məna-dəyərə malik görüntüsü nəzəri cəlb edir. Müharibəyə yola düşən qatarın arxadakı mənzərəni geridə qoyaraq davam etməsi mübarizənin ən qəmli anlarını özündə əks etdirir. Sol hissəyə doğru verilmiş qatarın sağ hissəsində geniş bir boşluq buraxılmışdır. Həmin boşluq sadəcə tonal ləkələrin vasitəsilə rəssamın mənzərəyə fərdi münasibətini təqdim edir.

Rəssamın 1943-cü ildə Səməd Vurğunun döyüşçülər arasındakı söhbətini əks etdirən kompozisiyası isə 1979-cu ildə yaradılmışdır. 30 ildən də çox zamanın keçməsinə baxmayaraq yaşananların təəssüratı, Səməd Vurğun poeziyasının döyüşçülərə verdiyi ilham K.Kazımzadə xatirələrinin işıqlı anları kimi əsərdə də özünün mükəmməl əksini tapmışdır. Soyuq qış fəslində, əyinlərində qalın hərbi geyimləri ilə təsvir edilmiş döyüşçülər əlindəki vərəqdən şeir oxuyan lirik şairi dinləyirlər.

İkinci Dünya müharibəsinə həsr edilmiş əsərlər silsiləsində özündə lirik-romantik hisslər aşılayan, olduqca həssas səhnə təəssüratını canlandıran kompozisiyalardan biri də "Ananın məktubu" adlanır. Havanın qaralmağa başladığı, olduqca tünd çalarla ifadə edilmiş kompozisiyada gülümsəyən səmimi simalar tablonu sanki nura qərq edir. Bu, anadan gələn məktubu bütün sevgisi ilə oxuyan əsgərin sevinc anlarının tərənnümü səhnəsidir. Döyüşün gərgin

anlarında tankın yanında dincini alan üç nəfər azərbaycanlı döyüşçünün yerə oturaraq məktubu oxuyan insanı dinləmələri bütün anaların övladına xeyir-duası, keçirdiyi narahatlığı kimi dərin həssaslıq yaratmışdır. Əsərin qrafik təsviri rəssamın sırf təsəvvürü, yaradıcı təxəyyülünün məhsuludur. Onun insan psixologiyasına dərindən bələd olan müşahidəçiliyi hər bir əsərdə xarakterik mühit və obrazların canlandırılmasında böyük əhəmiyyət kəsb etmişdir.

"Darmadağın edilmiş faşist tankı" adlı əsəri özünün nikbin ruhu ilə maraq doğurur. Dağılmış tankın önündə iftixarla dayanaraq ona tamaşa edən həmyerlilərimizin qürur dolu məğrur simaları rəssamın da daxili hiss və həyəcanının tərənnümü kimi mükəmməl kompozisiya quruluşunun meydana gəlməsinə səbəb olmuşdur. Milli cizgilər, Azərbaycan kişisinə məxsus məğlubolunmaz sima əsərdə bütün cizgiləri ilə əks edilmişdir.

K.Kazımzadənin "Müharibə yolları ilə" seriyasına daxil olan portret əsərlər sırasında Hüseyn Nəcəfovun xatirəsinə həsr etdiyi nümunə də özünün obrazlı tərənnümü ilə maraq oyadır. Müharibədəki sarsılmazlığının, şücaətinin arxasından vətənə dönərək qürur doğuran simalarının obraz təsvirlərində rəssam eyni hərbi təyinatlı geyim formasından istifadə edərək müharibə yollarının geridə qalan ağırlıqlarının cizgilərə hopan izlərini göstərsə də, hər bir obrazın tərənnümündə onların fərqli xarakterik, psixoloji aləmlərini üzə çıxaran cizgilərə xüsusi əhəmiyyət vermişdir.

Dissertasiyanın "**Xalq rəssamı Kazım Kazımzadənin yaradıcılığında fərdi çalarlar"** adlı II fəslin **"Kazım Kazımzadənin əsərlərində obrazlılıq"** adlı 1 paraqrafında göstərilir ki, rəssamın əsərlərindəki insan təsvirlərinin, xüsusən də süjet xəttindən asılı olaraq müxtəlif kompozisiyalarda verilmiş xarakterik obrazlardakı dəqiq cizgilərin həssaslıqla həyata keçirilməsi onun əvəzsiz yaradıcılığını nümayiş etdirir. Həmin əsərlər sadəcə təsvir xarakteri daşımayaraq K.Kazımzadənin fərdi münasibətindən doğan səmimi hisslərinin tərənnümü ilə öz bədii həllini tapmışdır.

Rəssamın Mirzə Fətəli Axundovun "Seçilmiş əsərləri" kitabına edilmiş üz qabığında ədibin portretinin obrazlı təsviri maraq doğurur. Əlindəki kitabı yarı qapanmış halda tutaraq dərin fikrə getmiş yazarın

simasındakı olduqca düşüncəli cizgilər onun yeni əsərinin süjeti üzərində daxili müzakirələr aparması təəssüratı yaradır.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında əvəzsiz xidmətləri olan böyük bəstəkar Üzeyir Hacıbəyovun xatirəsinə həsr edilmiş portret də K.Kazımzadənin uğurlu əsərləri sırasındadır. Rəssam burada bəstəkarın real görüntüsünü tamaşaçısına baxarkən təsvirə almış, onun dəqiq cizgilərini, xarakterik aləmi açıqlayan sifət mimikalarını bütün dəqiqliyi ilə canlandırmağa çalışmışdır. Milli operamızın banisi, publisist və dramaturq, ictimai xadim, təcrübəli pedaqoq Üzeyir Hacıbəyovun portretinin təsviri zamanı rəssamın ağ fon üzərində karandaşın istifadəsi ilə yaratdığı dəyər əsas fərdi əlamət və keyfiyyəti olan ətraflı, mükəmməl, hərtərəfli işlənmiş insan şəxsiyyətinin təsviri surəti ilə diqqəti cəlb edir.

Rəssamın 1940-cı ildə çəkdiyi Səməd Vurğunun portreti onun səmimi, gülərüzü lirizm dolu romantik dünyasından xəbər verir. Bir qədər sol tərəfə doğru baxan baxışlarda insana, həyata, insanlara olan sevginin izlərini təsdiq edən cizgilər olduqca təbii formalarla əks olunmuşdur.

“Azərbaycan tarix elminin atası” sayılan Abbasqulu ağa Bakıxanovun portreti də K.Kazımzadənin həyati fəaliyyətinə önəm verdiyi şəxsiyyətin obraz tərənnümünə həsr edilmiş dəyərli əsərləri sırasındadır.

K.Kazımzadə insandakı milli xüsusiyyətləri düzgün və bütün rəngarəngliyi ilə canlandıran böyük və parlaq xarakterlər yaratmağı sənəti üçün əsas hesab edirdi. Belə əsərlərdən biri də 1947-ci ildə çəkdiyi XVII əsrdə yaşayıb yaratmış Azərbaycan türkü, klassik ədəbiyyatımızın görkəmli nümayəndələrindən biri olan Saib Təbriziyə həsr edilmiş qrafik əsərdir. Digər əsərlərdən fərqli olaraq rəssam burada qəhrəmanın təbiət qoynunda hərəkət edərkən təsvir etməyi daha məqsədli hesab etmişdir. Əsərin təqdim etdiyi təsir gücünü artıran boş yolun üzərində qalan tənha kiçik kollar, arxa fonda ağaran alçaq təpələr şairin daxili dünyasındakı ağrıları, mənəviyyatını narahat edən hisslərini ifadə edir.

K.Kazımzadənin siyasi məzmunlu portret əsərləri də vardır ki, hətta digər etnik qrup və xalqların da həyatında baş verən hadisələr, həmin hadisələrin önündə gedən şəxsi simalar rəssamın yaradıcılıq

nümunələri sırasına daxil olaraq zamanın tarixi aspektdən araşdırılmasında da böyük rol oynayır. Məsələn, 1945-ci ildə yaratdığı "Mehabad" adlı əsərdə sənətkar siyasi hərəkatın o zamankı öncüllərindən olan Qazi Məhəmmədin portretini dərin psixoloji, milli-mənsubu dəyərləri ilə həyata keçirmişdir.

K.Kazımzadə hər zaman geyim tərzinin dəqiqliyinə fikir versə də, bunu portretləri üçün əsas nüans olaraq irəli çəkməmişdir. Çünki zahiri görkəmin, geyimin təsviri xarakterin milli müəyyənliyi üçün nə qədər əhəmiyyətli hesab edilsə də, bunun əsas şərt olmadığı danılmazdır. Həqiqi milliliyin xalq ruhunun tərənnüm edilməsində şərt olduğunu bütün yaradıcılığı üçün dərindən dərk edən görkəmli rəssam əslində XX əsrin ortaları üçün ənənəvi İran qadın geyimlərinin əsaslarına müraciət etməmiş, öz qəhrəmanında milliliyi və mübarizliyi yaratmağı bacarmışdır.

Fəslin **"Kazım Kazımzadənin teatr və kino sahəsindəki yaradıcılığı"** adlı 2 paraqrafında qeyd olunur ki, istedadlı rəssam olan K.Kazımzadənin çoxşaxəli yaradıcılığında teatr və kino üçün yaratdığı kostyumlar xüsusi maraq doğurur. O hər bir obrazı dəqiqliklə işləmək üçün sadəcə personajın oynadığı rola uyğun deyil, həm də əsərdəki hadisələrin cərəyan etdiyi zamana uyğun həmin tarixi dövr haqqında geniş informasiya əldə edərək geyim seçməyə çalışırdı.

Hər hansı bir obrazın yaradılması zamanı rəssam onun zahiri görkəmini təşkil edən geyiminə xüsusi önəm vermişdir. Bu baxımdan rəssamın teatr və kino obrazları üçün yaratdığı kostyum eskizləri onu geyim rəssamı kimi Azərbaycan səhnəqrafiyasına gətirdiyi töhfələrin nümunəsidir. Rəssamın 1948-ci ildə "Nizami" tamaşası, 1964-cü ildə "Koroğlu" operası üçün, eləcə də "Bir qalanın sirri" (1959), "Əhməd haradadır?" (1963), "Qanun naminə" ("Mehman", 1969), "Üzeyir Hacibəyov. Uzun ömrün akkordları" (1981) və "Atları yəhərləyin" (1985) kimi filmləri üçün hazırladığı geyim eskizlərində personajların tarixiliyini və sosial statusunu əsas tutaraq siluet, plastik həll, materialın növü, rəng həlli kimi müxtəlif bədii-plastik vasitələrdən istifadə edirdi. Bu səbəbdən K.Kazımzadənin geyim nümunələrini müstəqil sənət əsəri kimi dəyərləndirmək olar.

"Koroğlu" operasında K.Kazımzadə təbii materiallardan istifadə etməklə ümumi mühiti canlandırmağa çalışıb. Koroğlu və

onun məsləkdaşlarının həyat tərzinə uyğun olaraq, rəssam kostyumlara yeni nəfəs əlavə edib. O, ənənəvi milli geyim dəstinə müraciət edərək köynək, arxalıq, çuxa, şalvar, qurşaq kimi geyim elementlərindən istifadə etmişdir. Bu baxımdan Həsən xan obrazına seçilmiş geyim dəsti xüsusi diqqətə layiqdir. Burada rəssam Qacarlar dövrünün geyim mədəniyyətinə xarakterik cizgiləri əks edən geyim tərzi seçmişdir. Xanın geyimində daha dəbdəbəli, zənginlik saçan detalların istifadəsi onun xalqına nankor, rəzil və dünya malına olan məhəbbətini qəzəbli şəkildə ifadə edir. Qırmızı uzun əbanın bəzək elementlərinin ənənəvi olaraq çiyin və qollarda təkrarlanması da dövrün geyim tərzini şərtləndirən obrazlılığı ilə diqqəti cəlb edir.

K.Kazımzadənin yaradıcılığında milli dəyərlərin qoruyucusu olan xalqın geyim ənənələri xüsusi yer tutur. Məlumdur ki, bütün dövrlərdə xalq geyimi təbii ki, yuxarı təbəqələrin geyiminə təsir göstərmiş və eyni zamanda ondan da təsirlənmişdir. Bu bilikləri rəhbər tutan rəssam milli xarakter daşıyan filmlərdə mənəvi dəyərləri qoruyub saxlamağı və tətbiq etməyi bacarmışdır.

“Bir qalanın sirri” filmində (1959) K.Kazımzadənin orta əsr dəbdəbəsinə bağlılığı zəngin ornamentliyə və zahiri gözəlliyə meylli kostyumların həllini müəyyənləşdirdi. Rəssamın vəzifəsi dövrünün kino effektindən maksimum dərəcədə istifadə edərək, bir-birinə əks olan xeyir və şər aləminin ifadəsini geyimlərin vasitəsilə tamaşaçıya çatdırmaq idi. Simnar xanın çevrəsində olan personajların geyimlərindəki müxtəliflik, fars, türk, ərəb geyim elementlərinin qarşılığı şərti dissonans törədir. Ümumi şərhdə elementlərin uyğunsuzluğu, ağır parça fakturasının bəzəklərində zəngin ornamentdən istifadə Qanlı qalanın zəif işıqlanması ilə səsləşərək dəhşətli mühitin yaranmasını təmin edir.

Dahi sənətkar – bəstəkar, dirijor, musiqişünas, publisist, mübariz ziyalı, mütərəqqi insan Üzeyir Hacıbəylinin həyat və yaradıcılıq yoluna həsr edilmiş “Üzeyir Hacibəyov. Uzun ömrün akkordları” filmi üçün K.Kazımzadənin yaratdığı geyim eskizləri sənətkarın uşaqlıqdan ömrünün axırına kimi keçdiyi həyat yolunu izləməyə imkan verdi. Üzeyir Hacıbəyovu kiçik yaşlarında Qarabağ gənclərinə xas Azərbaycanın milli geyimində təqdim edən rəssam onun yetkin çağlarında artıq XX əsrin Avropa geyiminə uyğun

kostyumda, boynunda papyon qalstukda təqdim etməklə yanaşı milliliyi saxlamaq üçün buxara papağında göstərmişdir.

Fəslin **"Kazım Kazımzadənin əsərlərində məkan təsvirinin bədii ifadə vasitələri"** adlı 3 paraqrafında qeyd olunur ki, Xalq rəssamı K.Kazımzadə fərqli mövzular üzərində çalışaraq hər dəfə fərqli məkan xüsusiyyətlərinin əsərin məzmununa uyğun bədii nəqli ilə xarakterizə etməyi bacarmışdır. K.Kazımzadənin gördüyü mənzərələrin, şəhərlərin xarakterik mühitinin əsasını tutan, məkan keyfiyyətlərini canlandıran əsərlərində bir səmimiyyət, adi təsvir manerasından uzaq, şəxsi münasibət, hisslərinin material üzərində əksi həmin əsərlərin güclü bədii ifadə vasitəsini əsaslandıran cəhətlərdir. Rəssamın 1972-ci ildə həyata keçirdiyi "İraq" silsiləsindən olan əsərlərində gəzdiyi kənd və şəhərlərin görüntüsünü, sadə mənzərəsini deyil, onu heyran edən, düşündürən, həyəcanlandıran, kədərləndirən və yaxud sevindirən anların tərənnümünün təsvirini əsas hesab etmişdir. Belə təsvirlərindən biri də "Füzulinin məqbərəsi" önündəki xalqın günlük yaşam səhnəsinin tərənnümünə həsr edilmiş əsərlərdir.

Azərbaycanın dahi filosof şairi Məhəmməd Füzulinin Kərbəladakı məqbərəsi və onun ətrafındakı həyat rəssamın böyük müşahidəçi qabiliyyətindən xəbər verir. Sevgi dünyasının böyük şairinin məzarı şəhərin mərkəzində özünün digər elementlərdən fərqli tünd çalarları ilə diqqəti çəkir. Meydanın mərkəzindəki məqbərə real görkəmi ilə təsvir edilərək, eyni zamanda oraya ziyarətə gələn insanların da ona maraqla, sevgi ilə tamaşa etmələrini tərənnüm edir. Bu sevgini rəssam izləyicilərin üzü məqbərəyə olan obrazlarını əks edən jestləri, onların ayaq saxlayaraq əzəmətli tikiliyə heyranlıqla baxmaları ilə təsdiq etmişdir.

Rəssamın "İraq" silsiləsinə daxil digər əsərində isə şəhərin fərqli özünəməxsusluğunu, orada yaşayan insanların xarakterik mühitinin əks olunması əsas götürülmüşdür. Kağız üzərində sulu boya ilə həll edilmiş əsərdə əsasən mavi, göy, yaşıl kimi çalarlardan geniş istifadə edilmişdir. Şəhərin memarlıq mühitinə gəldikdə isə tarixi simanın daşıyıcısı kimi qədim qala divarlarını xatırladan hündür daş tikilinin böyük ərazinin bir ucundan digər tərəfinə doğru uzanaraq iri daş hörgülü tağ ilə birləşdiyini görürük. Mənzərənin arxa hissəsinə

sədd kimi çəkilmiş bu tikililər insanların marağına səbəb olan ətraf mühit ilə bağlılığını təmin edir. Tağın enli divarının daxili hissəsində günəş şüasının düşməsi nəticəsində yaranan hansısa bir abidə və yaxud tikilinin kölgəsi əks olunmuşdur. Bu ifadə tərzi qeyd edilən marağa daha güclü bir təsir bəxş edir. Qala divarlarının o biri tayında qalmış, tamaşaçının gözlə görə bilmədiyi mənzərənin sadəcə enli divara düşmüş kölgəsi sayəsində şəhərin memarlıq tarixinin maraq oyadan məqamlarını qabardır. Kölgə böyük bir bina və yaxud digər bir qədim Şərq memarlığına məxsus formanı xatırladaraq şəhərin tarixi keçmişinə işarə edir.

Daim yaradıcılıq fəaliyyətini genişləndirmək məqsədilə daha fərqli mənzərələr tapmaqda böyük müşahidəçi təcrübəyə malik olan K.Kazımzadə elə şəhərləri, şəhərlərin elə məkanlarını gəzmişdir ki, həmin yerlər sadəcə adi bir mənzərəni deyil, bütöv bir ölkəni, mədəniyyəti xarakterizə edən nümunələr kimi maraq oyadır. Belə əsərlərdən birində olduqca fərqli, çox-çox qədim bir mənzərənin tərənnümündə hündür sütunları xatırladan tək-tək aralıqlara verilmiş qədim türbələr, açıqda qalan tağ tipli arakəsmələr yana-yana verilərək fərqli təsvir forması ilə maraq oyadır.

Rəssamın “İraq” silsiləsinə məxsus əsərləri əsasında gəlinmiş nəticə kimi qeyd etmək olar ki, həmin əsərlərdə tərənnüm edilmiş mənzərələrin hər birinin fərqli təsvir vasitələri, kompozisiya quruluşları K.Kazımzadənin mühitin xarakterik xüsusiyyətlərinin verilməsinə diqqətli yanaşaraq təkrarçılıqdan uzaq olmasını bir daha təsdiqləyir. Əsərlərdəki yaxın rəng həlli isə onların səciyyəvi xüsusiyyəti kimi dəyərləndirilir.

Rəssamın 1964-cü ildə yaratdığı “Kuba” silsiləsinə aid əsərlərindən birində boz-mavi səma ilə güzgü kimi parıldayan gölün sakit suları arasında harmonik bir əlaqələndirmə yaradılmışdır. Bu təsvirin mərkəzində qalmış qamışdan olan alçaq damlı evlərin bir qədər uzaqda kompozisiyaya salınması isə rəssamın mənzərədən aldığı xoş təəssüratın əksi kimi dəyərləndirilir. Narıncı damlı evlər əsasən göy rəngin çalarlarında həyata keçirilmişdir. Sahilində yerləşən həmin yaşayış məntəqələri Kubanın qədim şəhərlərindən birinin yaşam tərzini tərənnüm edir. Eyni zamanda həmin kiçik

tikililərdə milli xarakterik xüsusiyyətlərin təsirləri də özünü göstərməkdədir.

“Kuba” silsiləsinə aid digər bir əsərdə isə tamamilə fərqli mənzərə təəssüratı ilə rastlaşırıq. Kompozisiyada şəhərin daha müasir və dinamik təsvirini canlandıran K.Kazımzadə burada təbiət motivləri ilə digər elementlərin sintezini uğurlu şəkildə əlaqələndirmişdir. Lakin silsilənin eyni üslubunu tutaraq boz-mavi sakit səma ilə birləşən yerin tərənnümü mərkəzi təsvirin daha qabarıq nəzəri cəlb etməsinə imkan yaratmışdır. Günbəzli kiçik dayanacaq tünd yaşıl palma və digər eyni tonlu ağacların əhatəsində yer almışdır. Qızılı və yaşılın sərt keçidləri heç bir hərəkətin olmadığı nümunədə dinamik ifadənin bədiiliyini təsdiqləyir. Bu dinamizm eyni zamanda kənarda dayanmış maşınların tünd qırmızı və ağ tonlarda həll edilməsi ilə də özünü göstərir.

**Nəticədə** dissertasiyaya yekun vurulmuşdur:

1. K.Kazımzadənin nəqli xarakter daşıyan əsərlərdə məkan, obraz və elementlər arasındakı uğurlu əlaqələndirməni əsasən ağ-qara ziddiyyəti ilə, bəzi zamanlarda isə yaxın çalarların uğurlu əlaqələndirməsi ilə həyata keçirilmişdir;
2. Xalq rəssamı K.Kazımzadənin kitab illüstrasiyalarında cizginin üstünlüyü əsas götürmüş, həcmlərin dəqiq modelləşdirilməsinə, ətraf mühitlə interyerin real təqdimatına çalışmışdır;
3. rəssam ağ-qara rəng ziddiyyətinin bədii ifadəsindən uğurla istifadə edərək nəqliliyin əldə olunmasına müvəffəqiyyətlə nail olmuşdur;
4. K.Kazımzadənin bir çox illüstrasiyalarında Şərq miniatür məktəbinin təsirləri – kompozisiya quruluşu, Şərq təsvir plastikasına üstünlük rəssamın fərdi yaradıcılıq üslubunda özünü hiss etdirməkdədir;
5. rəssam ədəbi əsərlərin həllində, o cümlədən Nizami irsinə müraciət etməklə klassik Azərbaycan təsviri sənət ikonoqrafiyasını canlandırmağa nail olmuşdur;
6. K.Kazımzadənin İkinci Dünya Müharibəsi mövzusuna həsr etdiyi əsərlərində sovet rejiminin təsviri sənət qarşısında qoyduğu tələblərə baxmayaraq millilik önə çəkilmiş, şəxsi hisslərinin

təsvirində mükəmməl bədii vasitələrdən istifadəyə üstünlük vermişdir;

7. rəssamın obrazlılığının qabarıq şəkildə xarakterizə olunmasında zaman, məkan və cəmiyyət prizmasını birləşdirərək ümumidən çıxış etməklə yanaşı, hər bir fərdin özünəməxsusluğunu ifadə edəcək bədii xüsusiyyətlərdən istifadə edərək həmin əsərlərin dəyərini müəyyənləşdirmişdir;

8. rəssamın müxtəlif mənzərələri əks etdirən əsərlərinə xas olan elementlərin məkanın ümumi cizgilərilə əlaqələndirilərək verilməsi həmin mənzərələrin psixoloji mühiti haqqında vahid təəssüratın yaranması kimi nəzəri cəlb edir;

9. etnoqrafik biliyi olan rəssam kino və teatr geyim eskizlərini yaradarkən tamaşaya qoyulan əsərlərin müxtəlif xarakterli obrazlara onların daşıdığı məna-məzmun tutumunu aşkarlayan, yaşadığı dövrlə səslənən görkəm verirdi.

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı məqalələr dərc edilib:**

1. Kazım Kazımzadənin əsərlərində məkan tərənnümünün lirik-romantik ifadəsi // “Axtarışlar”. Naxçıvan: “Tusi” - 2019, Cild 10, № 2 (32) - s. 217-221.
2. Xalq rəssamı Kazım Kazımzadənin yaradıcılığında xarici ölkələr // “Axtarışlar”. Naxçıvan: “Tusi” - 2019, Cild 11, №3 (33) - s.119-123.
3. Xalq rəssamı Kazım Kazımzadənin yaradıcılığında Nizami Gəncəvinin əsərlərinə münasibət // “Sənət Akademiyası”. Xoreoqrafiya Akademiyası. Bakı - 2019, №3 (8), - s. 27-30.
4. Эмоциональная сила художественного изложения в творчестве Казыма Казымзаде // “Paradigmata Poznani”, Vedecko vydavatelske centrum “Sociosfera – CZ”. Praga - 2019, № 4 - с. 73-77.
5. Художественные особенности иллюстраций Народного художника Казыма Казымзаде к книге «Азербайджанские сказки» // Art Culturology Economic sciences Philological sciences Pedagogical sciences Colloquium-jurnal Warszawa, Polska – 2021, №22 (109) - s. 30-33
6. Kazım Kazımzadə yaradıcılığında ikinci dünya müharibəsi mövzusu // “Mədəniyyət dünyası” – Bakı. - 2021. - s. 104-110.
7. Xalq rəssamı Kazım Kazımzadənin yaradıcılığında insan təsvirlərinin bədii ifadəsi // “Azərbaycan elminin və təhsilinin müasir problemləri”. Beynəlxalq Elmi Konfransın materialları, Qazax şəhəri - 25 may, 2019. - s. 410-412.
8. Художественные особенности книжной графики в творчестве Народного художника Казыма Казымзаде // Society, culture, personalaity in modern world / Materials of the scientific conference. February 16-17, 2019. Prague. - s. 31-33.
9. Xalq rəssamı Kazım Kazımzadənin qrafika əsərlərinin bədii cəhətləri // “Elm, mədəniyyət və incəsənətin qarşılıqlı əlaqəsi və müasir cəmiyyətin inkişafında rolu” mövzusunda III Respublika elmi-nəzəri konfransın materialları – ADMİU-nun nəşriyyatı – Bakı. 19-20 dekabr, 2019. - s. 141-146.

10. Творчество Народного художника Кязима Кязимзаде в области театра и кино // Научный форум: Филология, искусствоведение и культурология. LXXX международная научно-практическая конференция - № 4(80). Москва, 18-19 апреля 2024. с. 5-11

Dissertasiyanın müdafiəsi 29 may 2024-cü il tarixində saat 11.00-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Dövlət Rəssamlıq Akademiyası AZ 1029, Baki şəhəri,
Heydər Əliyev prospekti 26.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 29 aprel 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 22 aprel 2024
Kağızın formatı: A5
Həcm: 38.333
Tiraj: 100